


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 85 (24.222)

13 may 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasının çağırılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası 2023-cü il may ayının 16-da saat $11^{00}$-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın gündəliyinə aşağıdakı məsələlər daxil edilsin:

1. Naxçıvan Muxtar Respublikasının 2022-ci il büdcəsinin icrasının təsdiq edilməsi
2. "Toxumçuluq haqqında" və "İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" Naxçıvan Muxtar Respublikası qanunlarının ləğv edilməsi
3. "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının qanununda dəyişiklik edilməsi
4. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavininin seçilməsi
5. Cari məsələ

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 12 may 2023-cü il*

*2023-cü il "Heydər Əliyev İli"dir*

## Azərbaycanın bankçılıq sisteminin inkişaf strategiyasında Heydər Əliyev irsi




*Güclü bir dövlət üçün onun iqtisadiyyatı mühüm amil sayılır. Dövlətin iqtisadi inkişafı əhalinin rifah səviyyəsini təmin etmək üçün də vacib bir faktordur. İqtisadi inkişaf üçün isə iqtisadi islahatların həyata keçirilməsi və effektiv idarəetmə strukturlarının yaradılması da mütləqdir. İqtisadi inkişaf üçün böyük potensiala malik olan ölkəmizi düzgün siyasət ilə böyük iqtisadi gücə çevirmək Ulu Öndər Heydər Əliyevə nəsib olmuşdur. Belə ki, milli iqtisadiyyatımızın formalaşmasında Ümummilli Liderin xidmətləri misilsizdir. Ulu Öndər ölkəmizin gələcək inkişafını böyük uzaqgörənliklə ifadə etmişdir:* ***"Bir Prezident kimi mən Azərbaycanın iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu, dövlət siyasətimizin əsas prinsipləridir".***

Azərbaycanın keçdiyi iqtisadi inkişaf yoluna qısaca nəzər salsaq, görürük ki, 1991-1995-ci illərdə Azərbaycan iqtisadiyyatı iflic vəziyyətində idi. Belə ki, ötən əsrin son onilliyində Azərbaycan ikinci dəfə öz müstəqilliyinə qovuşduqdan sonrakı ilk illərdə ölkədə yaranmış siyasi böhran, torpaqlarımızın işğalı və bunun nəticəsində 1 milyondan artıq soydaşımızın doğma yurd yuvasından didərgin düşməsi, istehsal sahələrinin sıradan çıxması nəticəsində işsizlik səviyyəsinin artması, əhalinin pul gəlirinin kəskin azalması, infilyasiyanın idarəolunmaz səviyyəyə çatması, sosial-iqtisadi böhranı daha da dərinləşdirmiş və beləliklə, ölkə iqtisadiyyatı idarəolunmaz vəziyyətə düşmüşdü. Dərin böhranın müşahidə olunmasının səbəbi köhnə iqtisadi sistemin qalıqlarının mövcudluğu, xüsusilə də milli pul sisteminin olmaması idi. Hərçənd ki, 1992-ci ildə müstəqilliyin əsas atributlarından biri olan milli valyutamız manat dövriyyəyə buraxılsa da, o, ölkədə yeganə ödəniş vasitəsi deyildi. Belə bir şəraitdə bütün ömrünü xalqa həsr etmiş dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqın itirilmiş inamını özünə qaytarmaqla, ölkədə yeni inkişaf dövrünün də əsasını qoymuş oldu. Xalqın iradəsi və təkidli tələbi ilə 1993-cü ildə Ulu Öndərin siyasi hakimiyyətə qayıtmasından sonra bütün sahələrdə olduğu kimi, sosial-iqtisadi sahədə də sabitlik baş verdi. Elə məhz həmin dövrdən etibarən də iqtisadiyyatın düşdüyü ağır böhrandan çıxarılması üçün əsaslı islahatlara başlanıldı. Bununla da ölkəmizin iqtisadi həyatında taleyüklü dəyişikliklərin əsası qoyuldu. Dahi siyasətçi Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strategiyanın əsasını iqtisadiyyatın inkişafına, mövcud resurslardan səmərəli istifadəyə, dünya iqtisadiyyatına inteqrasiyaya və nəticə etibarilə, vətəndaşların rifah halının yüksəldilməsinə hesablanan sosial yönümlü bazar iqtisadiyyatının yaradılması təşkil edirdi. Düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitliyə nail olundu və davamlı iqtisadi artımın əsası qoyuldu, iqtisadiyyatın bütün sahələrində islahatlara başlanıldı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı.

Ulu Öndərin müdrikliklə, məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı iqtisadi siyasət nəticəsində ölkəmizin iqtisadiyyatında mühüm struktur dəyişiklikləri aparılmışdır. Təbii ki, ölkənin bank-maliyyə sektoru da bu inkişaf proseslərindən kənarda qala bilməzdi. Belə ki, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı digər sahələrdə olduğu kimi, bank sektorunun da formalaşması və inkişafında dönüş nöqtəsi oldu. Qeyd etmək lazımdır ki, bəhs edilən dövrə qədər bank işi zəif hüquqi bazaya əsaslanaraq keçmiş dövrün qanunvericiliyinə uyğun idarə edilirdi. Dünya ölkələrində istifadə olunan çoxsaylı bank əməliyyatlarından yalnız bir qismi respublikamızda icra olunurdu. Əmanət bankı sistemində ciddi nöqsanlar mövcud idi. Ulu Öndərin məşhur ***"Hər bir xalqın bankı onun iqtisadiyyatının, maliyyəsinin ən mötəbər hissəsidir!"*** devizi altında apardığı islahatlar əsasında bank sistemi sağlamlaşdırıldı və onun fəaliyyətində mövcud olan nöqsanlar aradan qaldırıldı. Müstəqillik dövründə bankçılıq fəaliyyəti sahəsində hüquqi mexanizmləri tənzimləyən mükəmməl qanunvericilik bazası formalaşdırıldı. Ölkədə müstəqil bank sistemi və pul tədavülünün hüquqi əsaslarını təmin etmək üçün yeni qanunvericilik sənədləri qəbul edildi, mövcud olan qanunvericilik sənədləri isə daha da təkmilləşdirildi. Belə ki, bank qanunlarının yenidən işlənməsi tapşırığı verilməsinin nəticəsi olaraq 1996-cı il 10 iyun tarixdə "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", 14 iyun tarixdə isə "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" qanunlar yeni redaksiyada qəbul edildi. Bu sahədə mükəmməl qanunvericilik bazasının formalaşdırılması Azərbaycanın bank sisteminin etibarlılığının artırılmasına, əmanətçilərin və kreditorların maraqlarının qorunmasına zəmin yaratdı.

Ulu Öndər Heydər Əliyevin birbaşa diqqət və dəstəyi ilə bank islahatları dövlət və özəl bankların yenidən qurulması, bank infrastrukturunun formalaşması istiqamətində həyata keçirilmişdir. Kapitalla bağlı müəyyən edilən aşağı tələblər, bankların fəaliyyəti üçün müəyyən edilmiş son dərəcədə liberal şərtlər çoxlu sayda özəl bankın sistemə daxil olmasını təmin etdi. Sonrakı dövrlərdə isə bank sisteminin davamlılığının təmin olunması məqsədilə banklar qarşısında qoyulan minimal kapital tələbinin mərhələli şəkildə artırılması dövrün tələblərinə cavab verə bilməyən kiçik bankların birləşməsinə, yaxud bağlanmasına səbəb oldu. Aparılan bütün bu islahatlar nəticəsində özəl bank sisteminin kapital bazası möhkəmləndirildi, ölkədə bank sisteminin genişlənməsinə imkan yaradıldı və ümumilikdə, bank sektorunda kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş oldu. Bunun nəticəsi olaraq ölkəmizdə beynəlxalq standartlara tam uyğun bir bank sistemi formalaşdırıldı.

Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaratdı. Belə ki, müstəqilliyin ilk illərində iflic hala düşmüş Azərbaycan iqtisadiyyatında tərəqqiyə nail olunmasında, çox kövrək və zəif dövlət siyasətinin güclü və aparıcı mövqeyə yüksəlməsində, gənc dövlətimizin dünya miqyasında tanıdılmasında Ümummilli Liderimiz Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Məhz güclü iqtisadiyyatımızın qurucusu olan Ulu Öndərin 90-cı illərin ortalarında təməlini qoyduğu sosial-iqtisadi baza bu gün Azərbaycan xalqının yüksək rifahına, onun parlaq gələcəyinə xidmət edir. Hazırda dünyanın ən sabit və sürətlə inkişaf edən güclü iqtisadiyyatına sahib olmağımız Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Danılmaz faktdır ki, bu gün Azərbaycan beynəlxalq aləmə sürətlə inteqrasiya olan, dinamik iqtisadi inkişafını və etibarlı siyasi sabitliyini təmin etmiş müstəqil bir dövlətdir. Artıq dünya birliyi Azərbaycanı mötəbər kürsülərdən öz sözünü deməyə, öz haqlı mövqeyini bildirməyə və qorumağa qadir, zəngin iqtisadi potensiala malik bir dövlət kimi tanıyır. Buna görə biz Azərbaycan dövlətini davamlı iqtisadi inkişafa aparan düşünülmüş strategiyanın banisi Heydər Əliyevə borcluyuq.

Bütün bunları nəzərə alaraq, söyləmək olar ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident cənab İlham Əliyev tərəfindən daha da inkişaf etdirilən strateji kurs Azərbaycanı qlobal zirvələrə doğru gedən ölkələr sırasında öncül mövqeyə çıxarmaqdadır. Beləliklə, siyasi və makroiqtisadi baxımdan sabit, davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə, etibarlı tərəfdaş, qlobal layihələrin fəal iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınan Azərbaycanın bugünkü uğurları məhz Heydər Əliyev siyasətinin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir. Bu siyasət Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan bütün hədəflərin gerçəkləşməsinə, müstəqil Azərbaycanın gələcək tərəqqisinə, daha qüdrətli dövlətə çevrilməsinə, xalqımızın daha firavan həyatına qovuşmasına mütləq əminlik yaradır.

Əminliklə deyə bilərik ki, həyata keçirilən iqtisadi siyasətin düzgün aparılması nəticəsində hazırda Azərbaycan dünya miqyasında iqtisadi sahədə ən sabit və yüksək inkişaf tempinə malik ölkə hesab olunur. Məhz Ümummilli Liderimizin təşəbbüsü ilə həyata keçirilən islahatları sayəsində qabaqcıl beynəlxalq təcrübəyə uyğun hazırlanmış mütərəqqi qanunvericilik bazası ilə bu gün Mərkəzi Bankın bütün funksional sahələri üzrə fəaliyyətinin daha səmərəli və effektiv həyata keçirilməsi üçün imkan yaradılıb. Özünü doğrultmuş bu iqtisadi strategiya əsasında Mərkəzi Bank da öz missiyası çərçivəsində üzərinə düşən vəzifələri yerinə yetirərək dəfələrlə qlobal iqtisadi böhranların ölkəmizə təsirini minimuma endirməyə nail olmuşdur. Bank-maliyyə sektorunda aparılan islahatların nəticəsidir ki, hazırda banklar müştərilərinə geniş çeşidli xidmətlər göstərir və pərakəndə bank xidmətləri sürətlə inkişaf edir. Əhaliyə bank məhsulları internet-bank, sms-bank, mobil-bank, avtomatlaşdırılmış bank köşkləri kimi ən müasir texnoloji vasitələrlə təklif edilir.

Ümummilli Lider Heydər Əliyevin iqtisadi quruculuq sahəsində atdığı strateji addımları, iqtisadi islahatların keçirilməsindəki səy və təşəbbüsü iqtisadi inkişaf tarixinin parlaq səhifəsi kimi daim yaddaşlarda yaşayacaqdır.

**Aytac AXUNDOVA**
***Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşı***

# Ümummilli Lider Heydər Əliyev və uğurlu ailə institutu

*Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 1993-cü ildə hər il may ayının 15-nin "Beynəlxalq Ailə Günü" kimi qeyd olunması barədə Qərar qəbul edibdir. Artıq qəbul edilmiş qərardan 30 il keçir ki, bu Qərar da Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə təsadüf edir.*

1994-cü ildən etibarən isə 15 may dünyada "Beynəlxalq Ailə Günü" kimi qeyd olunur. Ailə dəyərlərinin üstün olduğu ölkəmizdə isə bu əlamətdar gün 2008-ci ildən qeyd olunur.

Beynəlxalq Ailə Gününün təsis edilməsində əsas məqsəd dünya ictimaiyyətinin diqqətini müasir ailə ilə bağlı problemlərə cəlb etməkdir. Bununla beynəlxalq səviyyədə ailələr, onların rifahı, ailənin risk altına düşməsinin qarşısının alınması, həyat şəraitinin yaxşılaşdırılması kimi məsələləri gündəliyə gətirmək nəzərdə tutulub. Bu aksiya planetimizdə yaşayan bütün insanların diqqətini bir daha ailə problemlərinin həllinə yönəldir.

Ailə nikah, qohumluq, ümumi maraq və qarşılıqlı mənəvi məsuliyyətin mövcud olduğu kiçik qrupdur. Başqa sözlə, ailə vahid qayə uğrunda birlikdə var olub çalışan üzvlərin yaşayış tərzində ən əhəmiyyətli yer tutan təməldir. Sağlam cəmiyyətin, güclü dövlətin formalaşması və inkişafında mühüm vasitə olan ailə insanların bütün yaş dövrlərində ehtiyac duyduğu ən ali dəyərdir.

Müstəqil Azərbaycanda dövlət ailə siyasətinin əsas prinsiplərinin formalaşması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. ***"Ailə xüsusi, mürəkkəb insan münasibətləri aləmidir. Burada böyük bir nəzakət, həssaslıq, şəxsiyyətin ləyaqətinə, ailənin mənafeyinə, hörmət və ehtiram lazımdır"***, – deyən Ümummilli Lider Heydər Əliyev ölkəmizə rəhbərliyi dövrlərində ailə siyasətinin formalaşdırılması məsələlərinə böyük diqqət yetirilib, ailələrin sosial problemlərinin həlli istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər görülüb, ailə münasibətlərini tənzimləyən zəngin hüquqi baza yaradılıbdır. Dahi şəxsiyyətin rəhbərliyi ilə 1995-ci ilin 12 noyabrında referendumla qəbul olunan müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında ailə cəmiyyətin özəyi kimi təsbit edilib və dövlətin xüsusi himayəsində olması öz əksini tapıbdır. Bununla dövlət ailənin müdafiəsinə, onun sosial quruluşunun və nüfuzunun qorunmasına təminat verib. 1999-cu ildə qəbul edilən Azərbaycan Respublikasının Ailə Məcəlləsi ailə münasibətlərinin tənzimlənməsini özündə əks etdirən əsas hüquqi sənəddir. Ailələrin müdafiəsi, ailə dəyərlərimizin qorunması Ulu Öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. ***"Ailə dəyərləri, ailə ənənələri, milli-mənəvi dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəsb edir"***, – deyən Ümummilli Liderin rəhbərliyi ilə ölkəmizdə ana və uşaqların sağlamlığının möhkəmləndirilməsi, əhalinin reproduktiv sağlamlığının qorunması, sağlam uşaqların doğulması üçün zəruri şəraitin yaradılmasını nəzərdə tutan bir sıra qanunlar və Dövlət proqramları qəbul edilibdir. Müvafiq qanunvericilik aktlarında edilən dəyişikliklər həyata keçirilən tədbirlərdəndir. Belə ki, Ailə Məcəlləsinə edilən dəyişikliklər əsasında qızlar və oğlanlar üçün nikah yaşının 18-ə qaldırılması, nikahdan əvvəl gənclərin məcburi tibbi müayinədən keçməsi ailə üzvlərinin sağlamlığına, xüsusilə də ana və uşaqların sağlamlığının mühafizəsinə, həmçinin gələcək nəsillərin sağlamlığına xidmət edən mühüm amildir.

Ulu Öndər Heydər Əliyevin ailə siyasəti Azərbaycanda bu gün də məqsədyönlü surətdə həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev milli mənəvi dəyərlərin qorunmasına böyük diqqət və qayğı göstərir. Ölkə başçısı müasir Azərbaycanın həyatında ailə dəyərlərinin önəmini yüksək qiymətləndirərək deyib: ***"Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksək olmalıdır"***.

Xalqımızın dəyərlər sistemi haqqında daim yüksək fikirdə olan ölkə başçısı cənab İlham Əliyev deyib: ***"Xalqımızın yaşaması üçün, öz mənliyini, qürurunu qoruması üçün ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynamışdır"***. Dövlət ailə siyasəti Prezident cənab İlham Əliyevin imzaladığı fərman və sərəncamlarda, bir sıra Dövlət proqramlarında özünün uğurlu inkişafını tapıb. Bu gün ölkəmizdə ailələrin rifahının daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Xüsusilə aztəminatlı ailələrin, müharibə veteranları və şəhid ailələrinin, əlillərin, sağlamlıq imkanları məhdud şəxslərin yaşayışı, məşğulluğu, həyat səviyyəsinin yüksəldilməsi dövlət siyasətinin əsasını təşkil edir. Bu gün, ilk növbədə, həmin kateqoriyalardan olan insanlar mənzillərlə, avtomobillərlə təmin edilir. Onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində bütün imkanlardan istifadə olunur. "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 25 fevral tarixli Sərəncamı xüsusilə qeyd edilməlidir. Bu Sərəncam əlillərin, aztəminatlı ailələrin, sağlamlıq imkanları məhdud insanların həyat səviyyəsinin yüksəldilməsində mühüm rol oynadı. Eyni zamanda valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına, beşdən çox uşağı olan qadınlara verilən sosial müavinətin məbləği artırıldı. Ölkəmizin bütün sahələrdə əldə etdiyi uğurlar ailə institutunun inkişafında da öz təsdiqini tapmaqdadır. Prezident cənab İlham Əliyevin 2006-cı il 6 fevral tarixli Sərəncamı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Hazırda bu komitə dövlətin ailə siyasətini həyata keçirən bir qurum olaraq mövcud problemlərin üzərində işləyir, onların həlli istiqamətində mühüm tədbirlər həyata keçirir.

Muxtar respublikada əhalinin sosial rifah halının gücləndirilməsinin nəticəsidir ki, ildən-ilə ailələrin sayı artır. Hazırda Naxçıvan Muxtar Respublikasında 99052 ailə yaşayır. Bunlardan 537-si şəhid ailəsidir. Həmçinin muxtar respublikada həyata keçirilən sosial-iqtisadi siyasət ailələrin rifahının yaxşılaşdırılmasına, sosial müdafiəsinin gücləndirilməsinə, əhalinin məşğulluğunun təmin olunması və sağlamlığının qorunmasına, uşaq və yeniyetmələrin hərtərəfli inkişafına və eyni zamanda güclü nəsil kimi formalaşmasına xidmət edir. Dövlətimiz tərəfindən görülən bu işlər cəmiyyətin əsas atributu olan ailələrin rifah halının gündən-günə daha da yaxşılaşdırılmasının qayğısına qalmaqla onun müqəddəsliyini bir daha təsdiq edir.

Ailələrin sağlamlıqlarının qorunması ən prioritet məsələlərdən biridir. Muxtar respublikada icbari tibbi sığortanın tətbiqi ailələrimizə, qadınlarımıza, uşaqlarımıza müvafiq sahədə göstərilən diqqətin bariz nümunəsidir. Həmçinin qadınların sağlamlıqlarının qorunması, uşaqların sağlam böyüməsinin daim nəzarətdə saxlanılmasının nəticəsidir ki, muxtar respublikada bu sahədə müsbət nəticələr əldə olunub, ana ölümü sıfra, uşaq ölümü isə minimuma endirilib.

Xüsusi qayğıya ehtiyacı olan ailələrə xüsusi diqqət və qayğı ilə yanaşılması muxtar respublikada ailə siyasətinin əsasını təşkil edir. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və aidiyyəti dövlət orqanlarının nümayəndələri muxtar respublikada yaşayan xüsusi qayğıya ehtiyacı olan ailələrə mütəmadi baş çəkir, onların problemlərinin həlli istiqamətində müvafiq köməkliklər göstərilir, zəruri ehtiyacları ödənilir.

Həmçinin xüsusi qayğıya ehtiyacı olan ailələrin rifah halının yaxşılaşdırılması, həyat səviyyəsinin yüksəldilməsi istiqamətində işlər görülür, onlara sosial müavinətlər ödənilir. Xüsusi qayğıya ehtiyacı olan ailələr, həmçinin sosial yönümlü layihələrə cəlb edilir. Komitə tərəfindən 4 il ərzində icra olunan sosial layihələrdə, ümumilikdə, 192 qadına 156 min 250 manat dəyərində sərmayə kapitalı verilib. Eləcə də bu ailələrdən olan insanların, xüsusən də qadınların məşğulluqlarının artırılması sahəsində görülən işlərdən sərgi-satışların keçirilməsi də mühüm əhəmiyyət kəsb edir. Belə ki, ötən ilin müvafiq dövrü ərzində sərgi-satışlarda, yarmarkalarda, festivallarda, eləcə də muxtar respublikada fəaliyyət göstərən əl işləri mağazalarında, ümumilikdə, 505 istedadlı şəxsin 59417 manat dəyərində 5309 ədəd əl işi və ailə təsərrüfatı məhsulları satılıb.

Naxçıvan Muxtar Respublikasında ailələrə dəstək dövlətin diqqət mərkəzindədir. Bunun əyani nəticəsi muxtar respublikada müharibə veteranlarına, şəhid ailələri və hərbi xidmət zamanı sağlamlığını qismən itirmiş vətəndaşlara, eləcə də hərbi qulluqçuların, alim və fəaliyyət göstərdiyi sahədə uğurları ilə seçilən şəxslərin ailələrinə mənzillər verilməsidir. 2020-ci il 1 yanvar tarixdən bu günə qədər Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar 81, hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar 14 və Çernobıl AES-də hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar 8 nəfər əlilliyi olan şəxs olmaqla, ümumilikdə, 103 nəfər avtomobillərlə, həmçinin 2020-ci il 1 yanvar tarixdən bu günə qədər Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar sağlamlığını itirmiş 35 nəfər və 38 şəhid ailəsi mənzillərlə təmin olunmuşdur.

Əhalinin məşğulluğunun təmin olunması ailələrin sosial rifah halının yaxşılaşması istiqamətində görülən böyük işlərdəndir. Qəbul edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" çərçivəsində konkret tədbirlər həyata keçirilmişdir. Özünüməşğulluq proqramı çərçivəsində bu günədək 1320 ailə özünüməşğulluğa cəlb edilib ki, bunlardan 473-ü qadındır.

Həmçinin xüsusi qayğıya ehtiyacı olan ailələrin özünüməşğulluqlarının təmin edilməsi üçün müxtəlif sosial layihələr həyata keçirilir. Belə ki, ailələrə müxtəlif növdə aktivlər verilir ki, bu da muxtar respublikada ailə təsərrüfatlarının yaranmasına geniş imkanlar açıb. Ailə təsərrüfatlarının yaranması da əhalinin, xüsusən də ailələrin özünüməşğulluğunun təmin edilməsində xüsusi rol oynayır. Hazırda muxtar respublikada 1377 ailə təsərrüfatı fəaliyyət göstərir ki, onlardan da 156-sı qadınlar tərəfindən idarə olunur.

Bu danılmaz bir faktdır ki, gənc nəsil ailədə necə böyüyürsə, gələcəkdə cəmiyyətdə də tərbiyə aldığı mühitin daşıyıcısı qismində çıxış edir. Muxtar respublikada ailə siyasətini həyata keçirən orqan olaraq komitə tərəfindən mütəmadi olaraq muxtar respublikanın rayonlarında və kəndlərində, ümumtəhsil məktəblərində, ali və orta ixtisas təhsili müəssisələrində, eləcə də qadınlar və gənclər arasında müvafiq mövzularda konfranslar, seminarlar keçirilir, yazı və rəsm müsabiqələri təşkil edilir, eləcə də kütləvi informasiya vasitələrində sağlam ailənin formalaşması, ailə dəyərləri, uşaqların tərbiyəsinə təsir edən amillərlə bağlı çıxışlar edilir, maarifləndirici tədbirlər görülür. Belə ki, ailə münasibətlərinin formalaşması, yeni keyfiyyətlərin müsbət və mənfi təsiri haqqında, ailə dəyərlərimizin təbliği ilə bağlı silsilə tədbirlər həyata keçirir, yaşlı nəsillə gənc nəslin dialoqu təşkil edilir. Belə ki, "Reproduktiv sağlamlıq və ailə dəyərləri", "Gənc ailələrin sağlam olması gələcək nəsillərin sağlam olması deməkdir", "Erkən nikah ailə institutunun məhvidir", "Ailə mübahisələrinin hüquqi tənzimlənməsi", "Ailədaxili münaqişələr və onun qanunvericiliklə həll yolları", "Bərabər dayanıqlı ailə planlaşdırılması uğursuz nikahların qarşısını alan əsas faktorlardandır", "Qız övladlarımızı gələcəyin Azərbaycan qadını kimi böyüdək" mövzularında maarifləndirici tədbirlər, yeniyetmə və gənclərlə uzunömürlü, nümunəvi ailələrin görüşünün keçirilməsi, "Ailə dəyərləri film və fotolarda", "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzularında müsabiqələrin təşkil edilməsi, eyni zamanda "Münaqişəli ailələrlə profilaktiki söhbətlərin aparılması"ndakı əsas məqsəd ailə dəyərlərinin, milli-mənəvi dəyərlərin gənclər arasında təbliği, cəmiyyətdə bu istiqamətdə mövcud olan problemlərin işıqlandırılaraq həlli yollarının axtarılması və ailə institutunun inkişafına nail olunmasıdır.

Ölkəmizdə ailə bayramının qeyd olunması dövlət qadın siyasətinin də əyani təcəssümüdür. Ailənin əsas sütunlarından biri olan Azərbaycan qadını bu gün özü də ölkəmizdə əmin-amanlığın qorunması, ailə dəyərlərinin yaşadılması naminə əzmkarlıq göstərir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın ailə, qadın və uşaq məsələlərinə, bu sahədə aktual problemlərə həssas münasibəti bunu bir daha təsdiq edir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi nəhəng proqram və layihələr ailələr üçün, sözün əsl mənasında, böyük dayaqdır.

Bütün bunlar bir daha sübut edir ki, ailə Azərbaycan dövləti, Azərbaycan cəmiyyəti üçün həmişə müqəddəsdir. Dövlətimiz cəmiyyətin əsas atributu olan ailənin rifah halının gündən-günə daha da artmasının qayğısına qalmaqla onun müqəddəsliyini bir daha təsdiq edir.

Etiraf edilməlidir ki, gənclərin vətənpərvər ruhda, şəxsiyyət kimi böyüməsində ailə tərbiyəsinin xüsusi yeri var. Azərbaycan ailəsinin isə övladını əsl vətənpərvər, torpağına, elinə-obasına bağlı şəxsiyyət kimi yetişdirməkdən ötrü kifayət qədər potensialı mövcuddur. Böyüyə hörmət, insanpərvərlik kimi nəcib keyfiyyətlər bizim qədim adət-ənənələrimizdən irəli gəlir. Bu gün hər bir azərbaycanlı ailəsi Beynəlxalq Ailə Gününü daha da qürurlu qeyd edir. Çünki bu ailələrdə Vətən üçün sağlam ruhda böyüyüb boya-başa çatmış gənclər 30 illik düşmən işğalına son qoyub, 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad edib. Bu gün biz azad, suveren, müstəqil Azərbaycan Dövlətinin qurucusu, dahi şəxsiyyət Ulu Öndər Heydər Əliyevə, şəhidlərimizə, qazilərimizə və onları yetişdirən ailələrə borcluyuq.

Dövlət başçısı cənab İlham Əliyev deyib: ***"Ailə dəyərləri xalqımız üçün həmişə çox doğma olub, çox əziz olub və deyə bilərəm ki, ailə dəyərləri, əslində, bizim milli dəyərlərimizdir. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəkdə olmalıdır"***.

Ailə münasibətləri nə qədər mürəkkəbdirsə, bir o qədər də müqəddəsdir. Bu müqəddəsliyi qorumaq, onun aliliyinə xələl gətirməmək üçün ailə dəyərlərimizə sahib çıxmaq lazımdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Xüsusi qayğıya ehtiyacı olan ailələrə baş çəkilib



Naxçıvanda 15 may – Beynəlxalq Ailə Günü ilə əlaqədar Naxçıvan şəhər Qaraçux kəndində və Şərur rayonun Axura kəndində yaşayan sağlamlıq imkanları məhdud üzvü olan və çoxuşaqlı aztəminatlı ailələrə baş çəkilib.

Ailələrlə görüşdə bildirilib ki, dövlətimiz tərəfindən xüsusi qayğıya ehtiyacı olan ailələrə göstərilən diqqət və qayğı onların həyat səviyyəsinin yaxşılaşdırılmasına və sosial təminatlarının gücləndirilməsinə müsbət təsir göstərir. Xüsusən bayram və əlamətdar günlərdə bu kateqoriyadan olan ailələrlə görüşlər keçirilir, onlara ehtiyaclarına uyğun yardımlar verilir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları tərəfindən gətirilən ərzaq payı ailələrə təqdim edilib.

## Naxçıvan Muxtar Respublikasında vergi daxilolmaları 63,7 faiz artıb

Naxçıvan Muxtar Respublikasında büdcəyə vergi daxilolmalarında müsbət dinamika davam edir. 2023-cü ilin 4 ayında Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 51 milyondan çox vergi daxil olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 41,7 faiz və ya 15 milyon manat çoxdur. Təkcə bu ilin aprel ayı üzrə vergi daxilolmalarında 2022-ci ilin müvafiq dövrünə nisbətən 63,7 faiz və ya 5,6 milyon manat artım qeydə alınıb.

**Xəbərlər şöbəsi**

## “Come to Nakhchivan” fotoalbomu təqdim olunub



Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Come to Nakhchivan” fotoalbomunun təqdimat mərasimi keçirilib.

Təqdimat mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli bildirib ki, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da geniş şəkildə qeyd olunur. “Come to Nakhchivan” fotoalbomunun təqdimatı da həmin tədbirlərin davamıdır.

Vurğulanıb ki, fotoalboma nəzər yetirdikdə burada Ulu Öndərin bir zaman arzuladığı gənclik görünür. O gənclik ki, öz torpağını, Vətənini böyük sevgi ilə fotolarla izləyiciyə çatdırır. Fotoalbomda, əsasən, yurdumuzun gözəl təbiət mənzərələrinə geniş yer verilib. Bundan başqa, Naxçıvanın zəhmətkeş insanları, mətbəxindən nümunələr, etnoqrafiyamızın müxtəlif sahələri qruplaşdırılmış şəkildə albomda cəmləşdirilib.

Bildirilib ki, bu cür təşəbbüslərə dövlətimiz daim öz dəstəyini göstərir, bundan sonra da göstərəcək. Fotoalbom Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin dəstəyi ilə nəşr olunub.

“Come to Nakhchivan” layihəsinin rəhbəri, jurnalist Sara Əzimova çıxış edərək diqqətə çatdırıb ki, albomun Ulu Öndərin 100 illik yubileyinə həsr olunması komanda üçün böyük qürur və fəxarətdir.

“Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri Sahil Tahirli qeyd edib ki, gənclər fotoalbomda Naxçıvanın təbiətini, zəhmətkeş insanlarını öz yaradıcı təxəyyülü və yanaşması ilə təqdim etməyi bacarıb. Böyük Vətən sevgisi ilə çəkilən fotoşəkillər Naxçıvanla vizual tanışlıq imkanı yaradır.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid yenidən Naxçıvanda olmağından məmnunluğunu bildirib. Qeyd edib ki, “Come to Nakhchivan” fotoalbomu gənc jurnalistlərin, həvəskar fotoqrafların Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə töhfəsidir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova fotoalbomun dövlət dəstəyi ilə nəşr olunmasını yaradıcı qadınlara göstərilən qayğı kimi dəyərləndirib. Vurğulayıb ki, fotoalbomda zəhmətkeş xanımlara yer verilməsi təqdirəlayiqdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aidə Cəlilzadə çıxışında bildirib ki, fotoalbomun Azərbaycan və ingilis dillərində nəşr olunması kitabı daha böyük oxucu kütləsi üçün əlçatan edib.

Tədbirdə layihə iştirakçılarından Zülfüqar Qurbanlı, Sara Əsədova, Namaz Namazovun çıxışları dinlənilib.

Sonda layihə iştirakçılarına fotoalbom təqdim edilib.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi və Ailə, Qadın və Uşaq Məsələləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Babək rayon Nəzərabad Kənd Mərkəzində “Erkən nikah və onun fəsadlarının” qarşısının alınmasında profilaktiki tədbirlərin görülməsi ilə bağlı maarifləndirici tədbir keçirilib.*

## Erkən nikah və onun fəsadları barədə maarifləndirici tədbir keçirilib



Tədbiri giriş sözü ilə Babək Rayon İcra Hakimiyyəti başçısı aparatının əməkdaşı Şəfa Babayeva açaraq mövzunun aktuallığından və maarifləndirici tədbirlərin əhəmiyyətindən bəhs etmişdir.

“Erkən nikah ailə institutumuzun təhdididir” mövzusunda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin aparat rəhbəri Eltun Həziyev çıxış edib. Ailə dəyərlərimizin spesifik xüsusiyyətlərindən, həmin dəyərlərin qorunub saxlanılmasının əhəmiyyətindən danışıb. Diqqətə çatdırılıb ki, fiziki və mənəvi baxımdan öz inkişafını tamamlamayan qızlar, adətən, ailənin idarə olunmasında çətinlik çəkir, münaqişələrin həlli zamanı üçüncü şəxslərin müdaxiləsinə məruz qalırlar. Eltun Həziyev ailə dəyərlərinin itirilməməsi istiqamətində fikir və tövsiyələrini iştirakçılarla paylaşıb.

Ədliyyə Nazirliyinin Hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti aktları bölməsinin rəisi Həbibə Əliyeva “Erkən nikah problemlərinin sosial və hüquqi tərəfləri” barədə danışıb. Qeyd olunub ki, erkən nikaha məruz qalan qızların təhsildən uzaqlaşmaları nəticəsində onlar cəmiyyətdən kənar qalma və sosiallaşma problemləri ilə üzləşirlər. Bu isə onların Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən olunmuş təhsil hüquqlarının pozulmasına, hüququnu bilməyən təbəqənin formalaşmasına, nəticədə isə cəmiyyətin savadsızlaşmasına şərait yaradır.

Tədbirdə Naxçıvan Mediasiya Təşkilatının mediatoru Orxan Abbasov “Ailənin mediasiyasında mübahisələr və erkən nikahın fəsadları”, Ədliyyə Nazirliyinin Hüquqi şəxslər və vətəndaşlıq aktları bölməsinin baş məsləhətçisi Reyhan Sadiqova “Erkən nikah nəticəsində qeydə alınan nikahların uğursuz nəticələnməsinin səbəbləri” mövzularında çıxış ediblər. Çıxışlarda vurğulanıb ki, ölkəmizdə erkən nikahlara qarşı davamlı olaraq hüquqi islahatlar, maarifləndirici tədbirlər təşkil edilsə də, təəssüflər olsun ki, erkən nikah məsələsi tam olaraq aradan qaldırılmayıb. Bunu hər il erkən yaşda qadınlardan doğulan uşaqların statistikası da təsdiq edir.

Tədbir qarşılıqlı diskussiya şəraitində davam edib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

*Tarixi abidələrimiz milli sərvətimizdir*

## Şeyx Miranşah piri və məscidi haqqında nə bilirik?

*Şanlı tarixi, yeraltı və yerüstü sərvətləri, abidələri, yetirdiyi görkəmli şəxsiyyətləri ilə qürur duyduğumuz qədim diyarımız Naxçıvan əsrlərboyu elm və mədəniyyətin inkişaf etdiyi məkanlardan olmuşdur. Sirlərlə dolu Naxçıvan həm də müqəddəs məkanları – ibadətgahları, türbələri, xanəgahları və pirləri ilə seçilmişdir. Həm tarixin xəbərçisi, həm də dini-mədəni abidələrimiz olan pirlər diyarımızda kifayət qədərdir və bu gün də insanların ziyarət yerləridir. Onlardan biri də Babək rayonunun Qaraqala kəndinin şərqində yerləşən Miranşah piridir.*



Hündür təpənin ətəyində yer alan, tarixi, kim tərəfindən inşa edilməsi hələlik bilinməyən bu ziyarətgahda 3 qəbir mövcuddur və baş daşlarında heç bir yazı yoxdur. Dördbucaqlı formada və içərisi sütunlarla olub, iki hissəyə bölünmüş, iki qapı, iki silindrik formalı minarə və iki günbəzdən ibarətdir. Eyni zamanda günbəzlərdə aypara təsvirləri var. Pir və məscid kimi fəaliyyət göstərən bu ziyarətgah kənardan məscid görüntüsü təsiri bağışlayır. Bu günlərdə Miranşah piri ilə daha yaxından tanış olmaq və bu müqəddəs yer haqqında ətraflı məlumat almaq üçün kəndə üz tutduq. Sakinlərlə görüşüb həmsöhbət olduq. Kənd sakini ***Musa Həziyev*** bildirdi ki, eramızdan əvvəl III-II minilliklərə aid edilən Miranşah piri qayanın təbii oyuğunda yer almış və daş inancları ilə bağlı olmuşdur. Yayılmış rəvayətlər insanlarda bu müqəddəs ocağa böyük inam yaratmışdır. Bu abidədə şam yandırmaq, zəvvarların qara daşa toxunaraq dualar etmək, niyyət tutub daş yapışdırmaq kimi inanclar həyata keçirilir. Bura həm də bir çox insanların çətinliyə düşdükləri zaman bədnəzəri özlərindən uzaqlaşdırmaq, qorxularını aradan götürmək və ya ibadət etmək üçün üz tutduqları məkandır. 2004-cü ilə kimi, sadəcə, pir kimi fəaliyyət göstərib. Müsahibimiz deyir ki, 2004-cü ildə Məmmədrza Dizə kənd sakini, xeyriyyəçi Sərmasib Bağırovun təşəbbüsü və şəxsi vəsaiti hesabına



pir yenidən qurulub. Bu, məscidə daxil olarkən qapının üzərində yerləşən yazıdan da məlum olur. Pirin bərpası və məscidin tikintisi 7 ay çəkib. Məscidin daxilində bərpa və tikintidə iştirak edənlərin adları yazılıb. Onu da qeyd etmək lazımdır ki, bərpa zamanı dini ocaqlar üçün vacib sayılan tələblərə əməl edilib. Bu da onu göstərir ki, muxtar respublikamızda bu tipli abidələrin təmirində əsaslı təcrübə qazanılıb. Oxucuların diqqətinə onu da çatdıraq ki, pirdə bu müqəddəs ünvana üz tutanların ziyarətinə də xeyriyyəçi tərəfindən hərtərəfli şərait yaradılıb.

Qısaca bəhs etdiyimiz bu müqəddəs ocaq bizim tarixi-dini memarlıq abidəmizdir. Şeyx Miranşah pirinin araşdırılıb öyrənilməsi bu sahə üzrə məşğul olan tədqiqatçı alimlərin üzərinə düşür. Aparılacaq araşdırmalar, yəqin ki, bu inanc yerinin kimə məxsusluğunu, Şeyx Miranşahın şəxsiyyəti, pirin tikildiyi dövr haqqında məlumatlara yol aça bilər və bununla da muxtar respublikamızda bu tipli abidələrin sırası daha da zənginləşər.

**✍ Sürəyya QƏDİMƏLİYEVA**

## Muxtar respublikada torpaqların su təminatının yaxşılaşdırılması işləri davam edir

Naxçıvan Muxtar Respublikasında 2023-cü ilin suvarma mövsümünə hazırlıqla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin tabe idarələri tərəfindən ilin əvvəlindən tərtib olunmuş təmir qrafikinə uyğun olaraq aprel ayı ərzində kanallarda, nasos stansiyalarında və digər hidrotexniki qurğularda təmir işləri davam etdirilmiş, su anbarlarına suyun yığılması nəzarətdə saxlanılmışdır. Belə ki, muxtar respublikanın mövcud su anbarlarında 2023-cü ilin aprel ayının sonuna 150,13 milyon kubmetr su ehtiyatı toplanmış, su istifadəçilərinə aprel ayı ərzində 20,13 milyon kubmetr su verilmiş, bunun müqabilində 16 min 343 hektar torpaq sahəsi suvarılmışdır.



2023-cü ilin aprel ayı ərzində 20,29 kilometr beton və torpaq kanal, 26,23 kilometr ara arxlar, 3,81 kilometr kollektor lildən təmizlənmiş, 0,12 kilometr içməli su, 0,03 kilometr kanalizasiya xətti, 0,01 kilometr suvarma boru xətti çəkilmiş, 2,89 kilometr mövcud içməli su xətlərində, 0,4 kilometr kanalizasiya xətlərində, 5,4 kilometr suvarma boru xətlərində, 2,61 kilometr təzyiqli boru xətlərində, 0,54 kilometr isə kaptajlarda təmir-bərpa işləri aparılmışdır.

Torpaq sahələrinin su ilə təminatının yüksəldilməsi və su itkisinin qarşısının alınması məqsədilə mövcud kanal və arxların ehtiyac olan hissələrində təmir-bərpa işlərinin aparılması davam etdirilmişdir. Torpaq sahələrinin şoranlaşmasının qarşısını almaq məqsədilə kollektorlar lildən təmizlənmişdir. Belə ki, Şərur rayonunda Xələc kollektorunda 0,8 kilometr, Ərəbyengicə kollektorunda 0,5 kilometr, Babək rayonunda Çeşməbasar kollektorunda 2,3 kilometr, Vayxır kollektorunda isə 0,21 kilometr lildən təmizləmə işləri aparılmışdır. Görülən işlər nəticəsində Şərur rayonunda 15 hektar, Babək rayonunda isə 75,3 hektar olmaqla, ümumillikdə, 90,3 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır.

Yaşıllıq zolaqlarının suvarma suyu ilə təminatını yaxşılaşdırmaq məqsədilə Babək rayonu ərazisində Uzunoba gölü yaxınlığında olan terraslarda salınmış yaşıllıq zolaqlarının suvarma boru xətlərində 1 kilometr təmir-bərpa işləri aparılmışdır.

Nasos stansiyalarında və təzyiqli boru xətlərində əsaslı təmir işləri başa çatdırılmışdır. Şərur rayonunda “Zeyvə-1”, “Zeyvə-2”, “Həmzəli-2”, “Oğlanqala”, “Günəşli” və “Kərimbəyli-1” Nasos stansiyalarının təzyiqli boru xətlərində 1,52 kilometr, Babək rayonunda “Araz-1”, “Araz-2”, “Qoşadizə”, “Hacıvar” və “Nehrəm” Nasos stansiyalarının təzyiqli boru xətlərində 0,20 kilometr, Şahbuz rayonunda “Naxçıvani”, “Daylaqlı” Nasos stansiyalarının və Şahbuz şəhər subartezian quyusunun təzyiqli boru xətlərində 0,09 kilometr, Culfa rayonunda “Culfa-1” Nasos Stansiyasının və Bənəniyar Su Anbarının təzyiqli boru xətlərində 0,4 kilometr, Ordubad rayonunda “Dəstə-2” Nasos Stansiyasının təzyiqli boru xəttində 0,3 kilometr, Kəngərli rayonunda “Şahtaxtı”, “Qıvraq-2”, “Qıvraq-1” və “4№-li” Nasos stansiyalarının təzyiqli boru xəttində 0,05 kilometr, Naxçıvan şəhəri ərazisində olan “Azərbaycan” Nasos Stansiyasının təzyiqli boru xəttində isə 0,05 kilometr təmir-bərpa işləri görülmüşdür.

Suvarma və içməli su mənbəyi kimi istifadə olunan subartezian quyularının 6 ədədinə yeni nasos quraşdırılmaqla, 50 ədədi təmir olunmuşdur. Bundan əlavə, Culfa rayonunun Bənəniyar kəndində içməli su təminatını yaxşılaşdırmaq məqsədilə 1 ədəd subartezian quyusunun tikintisi başa çatdırılmışdır.

Cəmiyyətin Texniki Nəzarət, Hidrotexniki Qurğuların və Subartezian Quyuların Təmiri İdarəsinin təmir sexi tərəfindən 1 ədəd əks klapan, 14 ədəd su sayğacı təmir edilmiş, 94 ədəd nasos hissəsi hazırlanmışdır.

“Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində Babək rayonunun Nehrəm qəsəbəsində içməli su və kanalizasiya şəbəkəsinin tikintisi davam etdirilmişdir. Ərazidə 30 evin içməli su xəttinə, 12 evin isə kanalizasiya xəttinə birləşməsi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***



## Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş minifutbol turniri başa çatıb

2023-cü il mayın 8-də “Heydər Əliyev İli” ilə bağlı tədbirlər çərçivəsində Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin təşkilatçılığı ilə regionda fəaliyyət göstərən bank və digər kredit təşkilatları arasında keçirilən minifutbol turnirinin final mərhələsi keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri, Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri, həmçinin muxtar respublikada fəaliyyət göstərən bank filiallarının rəhbərləri, bank əməkdaşları iştirak ediblər.

“Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti və “Bank Respublika” Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının komandaları arasında baş tutan final oyunu gərgin mübarizə şəraitində keçmişdir. Görüş “Bank Respublika” Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının komandasının əzmkar qələbəsi ilə başa çatmışdır.

Yekunda qalib komandaların mükafatlandırma mərasimi keçirilmişdir. Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev və Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı çıxış edərək qalib komandalara təbriklərini çatdırıblar.

Sonra qalib komanda üzvlərinə kubok və diplomlar təqdim olunub.

Qeyd edək ki, 12 aprel tarixdən start verilmiş turnirdə, ümumilikdə, 12 komanda iştirak edib. Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin komandası ilə yanaşı, muxtar respublikada fəaliyyət göstərən bank, sığorta və digər kredit təşkilatlarının komandaları mübarizə aparıblar.

**Xəbərlər şöbəsi**

## Ailəmiz milli-mənəvi dəyərlərimizin yaşadıldığı və qorunduğu ocaqdır

*Ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması istiqamətində qəbul olunmuş bir sıra Dövlət proqramlarına əsasən müxtəlif tədbirlər həyata keçirilməkdədir. Bunlardan biri də gənclərin milli-mənəvi dəyərlər əsasında maarifləndirilməsi işinin təşkilidir. Çünki gənclərin milli ruhda formalaşdırılması onların ailə həyatının da milli-mənəvi dəyərlərə söykənərək qurulmasını təmin edən əsas amil kimi çıxış edir. Mənəvi dəyərlərə əsaslanaraq qurulan Azərbaycan ailəsi isə kiçik bir dövlət kimi milli-mənəvi dəyərlərin qorunmasında və gələcək nəsillərə ötürülməsində xüsusi əhəmiyyətə malik imkanları ilə hər zaman ön sıralarda qərarlaşır. Eyni zamanda milli-mənəvi dəyərlərə söykənərək qurulan ailə möhkəm təməllər üzərində nümunəvi olur. Burada bir-birindən asılı olan vəhdət özünü göstərir.*

Azərbaycanda ideal ailə modelinə sahib şəxsiyyətlərdən biri Ulu Öndər Heydər Əliyevdir. Dahi Lider hər zaman qazandığı uğur və nailiyyətlərin arxasında ailəsinin dayandığını söyləyir, deyirdi: ***“Gənc yaşlarımda mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin rolu böyük olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib”.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də Ümummilli Liderin bizə miras qoyduğu bu zəngin irsi layiqincə davam etdirir. Prezident cənab İlham Əliyev nitqlərinin birində deyib: ***“Azərbaycan o ölkədir ki, öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurubdur. Ənənəvi dəyərlər bizim üçün ən böyük sərvətdir... Hesab edirəm ki, ənənəvi dəyələrin, ailə dəyərlərinin təbliğ edilməsi hamımızın işi olmalıdır. Xalqımızın yaşaması üçün, mənliyinin, qürurunun qorunması üçün ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynamışdır”.***

Azərbaycanda qurulan ideal ailə modelinin təməlində mənəvi dəyərlərin qorunması, özünəməxsus ənənələrin yaşadılması, fərdlər arasında sədaqət, qarşılıqlı məhəbbət, dürüstlük, valideynlərə hörmət hisləri dayanır. Yalnız bu zaman ailə möhkəm və dayanıqlı olur. Bəs ailələrin milli-mənəvi dəyərlər əsasında qurulmasına müasir dövrümüzdə hansı amillər təsir edir? Ümumiyyətlə, müasir ailə modelində bu dəyərlər qorunurmu? Gənclər nələrə diqqət etməlidir? Bu və bu kimi suallara daha ətraflı cavab tapmaq üçün psixologiya üzrə fəlsəfə doktoru ***Çapay Quliyev***lə həmsöhbət olduq. Müsahibim deyir ki, Azərbaycanda hər zaman ailə dəyərləri hər şeydən üstün tutulub. Xalqımızın bu gün var olması, onun öz milli-mənəvi dəyərlərinə bu qədər möhkəm bağlanması bunun bariz nümunəsidir. Yaşadığımız əsri qloballaşma dövrü adlandırırıq. Qloballaşma əsrinin mühüm xüsusiyyətlərindən biri də inteqrasiyadır. Hazırda dünyaya çıxış imkanları həddindən artıq çoxalıb ki, bu da fərqli xalqların, millətlərin dəyərlərinin bir-birinə inteqrasiya etməsi ilə nəticələnən dəyərlər çoxluğunu yaratmışdır. Dəyərlər çoxluğu isə marginallaşma (dəyərlərin itirilməsi) ilə nəticələnə bilər. Buna görə də, gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyə edilməsi çox önəmlidir və hər bir xalq bunun qayğısına qalmalıdır. Əminliklə deyə bilərik ki, ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi işi daim diqqət mərkəzindədir. Bunun nəticəsidir ki, Vətənini, millətini və dövlətini sevən, onun üçün canını fəda edən gənclik formalaşmışdır. Bu, bir tərəfdən təhsil ocaqlarının payına düşürsə, digər tərəfdən düzgün ailə tərbiyəsinin bariz nəticəsidir.

Çapay müəllim onu da diqqətimizə çatdırır ki, Azərbaycanda, xüsusən də yaşadığımız regionda, ailə dəyərlərini formalaşdıran, onu yaşadan, müəyyənləşdirən, yazılan qanunlarla yanaşı, yazılmamış qanunlar da var. Hansı ki, yazılmamış qanunlar dədə-babalarımızdan və irsimizdən süzülüb gələn məsələlər kimi ailə dəyərlərimizin əsasını təmin edir. Lakin elə dəyərlərimiz, adət-ənənələrimiz vardır ki, onlar müasir dövrümüzlə bir o qədər də səsləşmir. Vaxtında aktuallıq kəsb etsə də, bu günün tələbləri həmin dəyərlərin, adət-ənənələrin yerini yeniləri ilə əvəzlənməsini tələb edir.

Qeyd edək ki, müasir inkişaf səviyyəsi yeni düşüncələrin və yeni münasibətlərin yaranması ilə nəticələnir. Yeni münasibətlər milli-mənəvi dəyərlərə söykənən müasir dayanıqlı və davamlı ailə modelini formalaşdırır. Bu baxımdan əvvəl mövcud olan ailə dəyərlərimizi yaşatmaqla yanaşı, müasir dünyanı da nəzərə almalıyıq. Yəni gənc ailələrdən tamamilə keçmişə köklənmələrini istəməməliyik.

Müsahibim onu da vurğulayır ki, bir vaxtlar atanın yanında oğul öz övladını qucağına ala bilmirdi. Təsəvvür edin, bir ailədə böyüklər yaşadığı müddətcə gənclər öz isti münasibətlərini övladlarına göstərə bilmirdilər. Təbii ki, bu da müəyyən mənada valideyn-övlad münasibətlərinə öz mənfi təsirini göstərirdi. Emosional bağlar yetəri qədər qurulmurdu. Ancaq müasir dövrümüzdə belə bir hala rast gəlmirik. Bir vaxtlar ailədaxili münasibətlərdə qaynana-gəlin münaqişələrinə rast gəlirdik. Onların arasında hörmət əlaməti olaraq, sadəcə, pərdə deyil, həm də keçilməz bir qala var idi. Bu da qaynana-gəlin münasibətlərində bir ögeylik yaradırdı. Günümüzdə isə bu belə deyil. İndi bu münasibətlərdə daha çox ana-övlad istiliyinin şahidi oluruq.

Çapay müəllim gənclərimizin diqqətinə çatdıraraq bildirir ki, onlar həm milli-mənəvi dəyərlərin yaşayıcısı, daşıyıcısı, həm də ötürücüsü olmalıdırlar. Bu gün hər bir Azərbaycan gənci, xüsusən də ailə quracaq olanlar qeyd edilən məsələlərə xüsusi diqqət yetirməlidirlər. Əks təqdirdə ailə dəyərlərimiz zamanla məhv olaraq aradan çıxar. Onun yerini bizə məxsus olmayan, bizə yad olan, bizim xarakter və xüsusiyyətlərimizlə uyuşmayan yeni dəyərlər sistemi tutar. Bu da bizim ailələrimizin sağlam təməllər üzrə qurulmasına, onun möhkəmliyinə, davamlılığına ciddi mənfi təsir göstərər.

Ona görə də sağlam ailə modelini mütləq şəkildə müasirliklə yanaşı, yaşadılması daim aktuallıq kəsb edən dəyərlər sistemimiz üzərində qurmalıyıq.

Müsahibim onu da vurğulayır ki, ailələrin üzərinə bir sıra vacib funksiyaları yerinə yetirmək düşür. Onlardan biri tərbiyə funksiyasıdır. Ailə böyükləri nümunəvi davranışları ilə həm öz övladlarına, həm də ətrafındakı digər gənclərə nümunə olmalıdırlar. Gənc nəsillər ailənin qurulması və idarə olunması haqqında maariflənməlidirlər ki, gələcəkdə övladını tərbiyə edəcək və inkişaf etdirəcək biliklərə sahib olsunlar. Ailə həyatlarını düzgün şəkildə planlaşdırsınlar ki, ailə mühiti içərisində özlərini xoşbəxt hiss etsinlər.

Möhkəm təməl üzərində qurulan uzunömürlü ailələrdən biri də Ordubad rayonunun Bist kəndində yaşayan Tahirovlar ailəsidir. Sözü gedən bu ailə cəmiyyətə və gənc nəslə nümunədir. 74 il birgə ömür sürməkdə olan bu ailəni canlı tarix hesab etmək olar. Elə buna görə də milli-mədəni dəyərləri yaşadaraq, bu günə qədər qoruyub saxlayan 96 yaşlı ***Mahmud Tahirov*** və 94 yaşlı ***Tutu Quliyeva*** ilə həmsöhbət olmaq qərarına gəldim. Söhbət zamanı Mahmud baba bildirdi ki, bizim hekayəmizin təməli qonşu kənddə təhsil aldığım zaman Tutu ilə tanış olduqda qoyuldu. Artıq bu tanışlığın üzərindən 74 il keçməsinə baxmayaraq, mənim ona olan münasibətim ilk günkü kimi qalır. Yoldaşıma yazdığım sevgi məktubu ən saf duyğularımın göstəricisi idi. Gözəl xatirələrimiz olan bu məktubları hələ də evimizdə qoruyub saxlayırıq.

Mahmud baba deyir ki, keçmiş dövrdə İkinci Dünya müharibəsinin başlaması üzündən ürəyimdəki sevgini və oxumaq həvəsimi yarımçıq qoydum. Amma buna baxmayaraq, bu arzuları daim qəlbimdə yaşatdım. Müharibədən sağ-salamat qayıdan qardaşlarım yükümü bir balaca azaltdılar. Anamı və bacımı onlara əmanət edərək Ordubaddakı pedaqoji məktəbdə təhsilimi davam etdirdim və arzularımın arxasınca inamla getdim.

Mahmud baba kimi onun ilk məhəbbəti olan Tutu nənənin də taleyində çətinliklər olub. Tutu nənə deyir ki, həmin dövrdə xatırladığım hadisələrdən, sadəcə, bunu deyə bilərəm ki, o zamanlar yaşadığımız hər günü son günmüş kimi yaşayırdıq. Amma hər şey geridə qaldı. Şükürlər olsun ki, bu gün gənc nəsil o ağrılı-acılı zəmanədə böyümür. Tutu nənə qeyd etdi ki, qəlbimizdə yaşatdığımız sevgi əsl sevgidirsə, nə çətinlik olursa-olsun, nə qədər zaman keçir-keçsin, sonunda vüsala yetişəcək. Şükürlər olsun ki, bizim sevgimiz də hər şeyə qalib gəldi və biz bir-birimizə qovuşduq. Mən xatırlayıram ki, ailə həyatı qurduqdan sonra 11 nəfər ilə birgə köhnə, təmirsiz birotaqlı evdə yaşamağa başladıq. Buna baxmayaraq, ailənin hər üzvü bir-birinə qarşı mehriban idi. Tutu nənə onu da qürurla deyir ki, Mahmud yaxşı müəllim olmaqla yanaşı, ideal övlad, qayğıkeş ata, mehriban həyat yoldaşı, sevimli babadır.

Ailələrinin davamlığının sirrindən bəhs edən Mahmud baba diqqətimizə çatdırır ki, ailəmizin uzunömürlülüyünün sirri mehribanlıq və hörmətdir. Nə qədər ki, kişi və onun qadını arasında qarşılıqlı hörmət, böyük-kiçik yeri bilinirsə, deməli, həmin ailə möhkəm təməl üzərində qurulub. Ailədə tərbiyə əsas rol oynayır. Ata, ana bir-birinə qayğı göstərirsə, həmin ailədə mehriban övladlar böyüyəcək. Mənim ən böyük fəxrim övladlarımın xoşbəxtliyidir.

Mahmud baba gənc nəslə tövsiyə verərək söylədi ki, ailə bağlarının möhkəm olması üçün kişi qadına hörmət etməli və bir-birinə güzəştə getməlidirlər:

– Qızım, unutmayın ki, ailə böyük bir dəyərdir. Ailəyə xüsusi məhəbbət və diqqət lazımdır. Gənclərimiz ailənin qədrini bilsinlər, – deyərək fikirlərini sonlandıran Mahmud babaya və onun ömür-gün yoldaşı Tutu nənəyə Allahdan cansağlığı arzu edirik.

Biz də gənc nəslin nümayəndəsi olaraq bu adət-ənənələrdən örnək götürərək bəhrələnməliyik. Amma bəzi ailələrdə baş verən problemlər bu günün reallığıdır. Gənc ailələr arasında daha çox xarakter uyğunsuzluğu, dünyagörüşün fərqliliyi, maddiyyat problemləri ön sırada dayanır. Cəmiyyətin inkişaf etməsinin tək yolu sağlam təməllər üzərində qurulan ailələr yetişdirməkdir. Bunun mənbəyində isə sevgi və hörmət dayanır. İslam dinində də ailə dəyərləri müqəddəs sayılır. Bəzən gənclərimiz yad mədəniyyətlərə uyğun dəyərləri götürərək cəmiyyətimizə uyğunlaşdırmağa çalışırlar. Bu da bizim adət-ənənələrə zidd bir hal alır. Biz xalqımızın gələcəyini düşünərək, öz dəyərlərimizi dərindən mənimsəyərək onları qoruyub saxlamalıyıq. Bugünkü ailələr öz səadətlərini və xoşbəxtliklərini düşünərək çıxdıqları bu yolda bir-birlərini sevib, güvənib, sədaqətli olsalar və ən əsası, bir-birlərinə arxadayaq olsalar, onların ailə dünyası cənnətə çevrilər.

Ailədə əxlaqi dəyərlərin təbliği də böyük əhəmiyyət daşıyır. Belə ki, ata-ananın davranışı birbaşa uşağa təsir edir. Bu gün dünyanın istənilən yerində övladların təlim-tərbiyəsinə təsir göstərən başlıca amil ailədaxili münasibətlərdir, fikrimizi daha dəqiq ifadə etsək, ailə böyüklərinin, valideynlərin bir-biri ilə qurduğu təməl əlaqələrdir. Mütəxəssislərin, fikrincə, səmimi, intellektli ailədə böyüyən hər bir uşaq, gələcəkdə hər bir sahədə özünü doğrulda bilir. Bu baxımdan ailə böyükləri, ələlxüsus da, valideynlər kiçik dövlət hesab etdiyimiz ailədə nümunəvi mədəniyyət formalaşdırmaqla ideal ailə dəyəri yaratmış olar. Övladlarına düzgün tərbiyə verməli, qeyri-əxlaqi davranışların düzgün olmadığını onlara başa salmalı, ailə daxilində paxıllığı, riyakarlığı, yalan danışmaq və pis vərdişlərdən uzaq tutmağı bacarmalıdırlar. Hər bir valideyn öz davranışları ilə bunu övladlarına aşılamalıdır.

Mədəni və sağlam təməllər üzərində qurulan ailə bağları möhkəm olar. Belə ailələr cəmiyyət içərisində özünəməxsus davranış, xasiyyət və digər xüsusiyyətləri ilə seçilirlər. Eyni zamanda ideal ailələrdə fərdlərin öz müstəqilliklərini hiss etməsi onların mənəvi rahatlığına və bunun nəticəsində zehni və əqli inkişaf qabiliyyətinin güclənməsinə səbəb ola bilir. Gənclərimiz sağlam təməllər üzərində ailə quraraq cəmiyyətə yararlı övlad yetişdirməyi cəmiyyət qarşısında özlərinin başlıca vəzifəsi hesab etməlidirlər. Düzgün ailə modeli əvəzolunmaz sərvətdir. İdeal ailələri birləşdirən isə təkcə qan bağı yox, sevgi, hörmət və bir-birini başa düşmə qabiliyyətidir. Ona görə də gəlin həqiqi ailənin təməlini bu sadalananlarla qoyaraq möhkəmləndirək.

✍ **Bülbül QULİYEVA**

## Elan

Naxçıvan Tikiş Açıq Səhmdar Cəmiyyəti bildirir ki, 12 may 2023-cü ildən 12 iyun 2023-cü ilə qədər səhmdarların növbəti yığıncağı keçiriləcəkdir.

Yığıncaq Naxçıvan şəhəri, İdris Məmmədov küçəsi 1-də saat $14^{00}$-da olacaqdır.

1. 2022-ci ilin fəaliyyəti haqqında hesabat.
2. Digər məsələlər.

***Naxçıvan Tikiş Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri: R.Abdinov***

### İtmişdir

Azərbaycan Müdafiə Nazirliyi tərəfindən Həsənov Səyyad Mənsur oğlunun adına verilmiş zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan Muxtar Respublikası Babək Rayon Hərbi Komissarlığı tərəfindən 10 oktyabr 2007-ci ildə Bayramov Ədalət Əyyub oğluna verilmiş 074877 nömrəli müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 331